DOI: 10.36719/2663-4619/56/85-88

**Adilə Qulam qızı İbrahimova**
Bakı Slavyan Universiteti
**İradə Xəlil qızı Zamanova**
Bakı Dövlət Universiteti

# MƏKTƏBƏQƏDƏR UŞAQLARDA NİTQ İNKİŞAFI PEDAQOJİ PROBLEM KİMİ

**Xülasə**

Uşağın ana dilinə yiyələnməsi, onun nitqinin inkişaf etdirilməsi məsələsi rus pedaqoqlarının əsərlərində daha geniş şəkildə əks olunmuşdur. Biz bunun daha aydın ifadəsini K.D.Uşinskinin, Y.N.Vodovozovanın, Y.İ.Tixeyevanın əsərlərində görürük. Rus pedaqoqları məktəbəqədər dövrdə ana dilinin əhəmiyyəti və onun təliminin yolları haqqında xeyli dəyərli, indi belə öz əhəmiyyətini itirməmiş fikirlər söyləmişlər.

***Açar sözər:*** *pedaqogika, ana dili, nitq inkişafı, bədii əsər*

## Speech development in preschool childhood as a pedagogical problem.

**Summary**

The problem of speech development of preschoolers today is considered as one of the important problems of modern childhood. An analysis of Ushinsky's creative works will allow us to conclude that he pays spesial attentipn to the methodology for the development of children in the process of teaching their mother tonque in the family and kindergarten.

***Key words:*** *pedagogy, native language, speech development,work of fiction*

Uşağın ana dilinə yiyələnməsi, onun nitqinin inkişaf etdirilməsi məsələsi rus pedaqoqlarının əsərlərində daha geniş şəkildə əks olunmuşdur.Uşağın nitqinin düzgün inkişafına mane olan səbəblərdən danışarkən Y.N.Vodovozova valideynlərin uşaq dilinə uyğun danışığını, uşağın hələ düzgün deyə bilmədiyi sözlərin valideynlər tərəfindən daim təkrar olunmasını da qeyd edir. Valideynlərin hər şeyi və həmişə uşağa izah etmək arzusu bəzi hallarda, uşaq bir şeyi diqqətlə müşahidə edərkən, yaxud maraqlı bir oyun oynayarkən, bir şey haqqında fikirləşərkən, Vodovozovanın fikrincə münasib deyildir. Buna görə də tərbiyəçinin hər bir sözü, fikri uşağa ətraf mühiti dərk etməyə kömək etməlidir. Vodovozova belə hesab edirdi ki, uşaq təxəyyülünün xüsusiyyətləri əyanilik tələb edir. Odur ki, o, əqli tərbiyə proqramına ana dili ilə yanaşı xalqın həyatı, məişəti, əməyi, ümumiyyətlə, ətraf mühitlə tanışlığı da daxil etmiş və uşağın nitq inkişafını əşyaların, təbiət hadislələrinin və ictimai həyatın müşahidəsilə sıx əlaqədə götürmüşdür. O göstərirdi ki, uşağın nitqinin inkişafı onun ümumi inkişaf prosesində olmalı, xüsusilə hər bir yeni anlayış və təəssürat sözlə daha möhkəm əlaqə təşkil etməlidir. Çünki yeni anlayış və təəssüratlar uşağın lüğətinin əsasını təşkil edir. Uşaq əşyaların canlı təsəvvürlərini də sözlərlə əlaqələndirməlidir. Ona görə də analar... uşaqların elə o andaca əli ilə göstərə biləcəyi şeylər haqqında mümkün qədər az danışmalıdırlar. Sözlə təfəkkürün qarşılıqlı əlaqəsindən danışarkən Vodovozova yazırdı ki, «uşaqlara nə qədər anlayış veririksə, bir o qədər də söz vermək lazımdır. Uşaq nəyə ad verirsə, onun haqqında düzgün təsəvvürə malik olmalı və bu təsəvvürü lazımi formaya salmağı bacarmalıdır». (2,26)

Vodovozova göstərir ki, sözlə təsəvvürü bir-birilə əlaqədar, bağlı şəkildə uşağa çatdırmaq, sözün mahiyyətinə nüfuz etmək nəinki körpəlik dövründə, məktəbəqədər dövrdə də zəruridir. Ona görə də o, sözlərin formal şəkildə əzbərlədilməsinin, nitqin vaxtından əvvəl, əsassız şəkildə inkişaf etdirilməsinin, qavranılması çətin olan, uşaqlar tərəfindən çətin başa düşülən sözlərdən istifadə etməyin qəti əleyhinə çıxırdı. Odur ki, onun hər bir yeni söz, xüsusilə kiçik yaşlı uşaqlarda konkret təsəvvürlərlə əlaqəli şəkildə verilməlidir, əks halda uşaq onunla ünsiyyətdə olanların söz və ifadələrinin mahiyyətini dərk etmədən qavrayacaqdır, - fikri heç bir şübhə doğurmur.

Uşağın lüğəti ilk növbədə təbiət hadisələrinin müşahidəsi, gəzinti, tənəzzöh prosesində, məişət əşyaları və insan əməyilə tanışlıq prosesində zənginləşdirilməlidir. Bunun üçün də o, təbiətlə tanışlığın müxtəlif yollarla aparılmasını təklif edirdi: müşahidə, gəzinti, tənəzzöh, canlı guşənin, uşaq bostanının və güllüyünün yaradılması, bitki və heyvanlara xidmət etmək, müsahibələr, tərbiyəçinin bədii nəqli, şəkillərdən, təbiət təqvimindən istifadə edilməsi... Bütün bu yollardan o tamamilə düzgün olaraq, uşağın təbiətlə bilavasitə tanışlığına üstünlük verirdi.

Uşaqda ictimai həyat hadisələrini anlamaq bacarığı yaradılmalıdır. Bu bacarığa o, müşahidə olunan əşya və ya hadisəni yadda saxlamaq, çox əhəmiyyətlini az əhəmiyyətlidən seçmək, bir əlaməti digərləri ilə müqayisə etmək, onlardan düzgün nəticə çıxarmaq, rəy söyləmək qabiliyyətini daxil edir və bu kimi

keyfiyyətlərin öz-özünə yaranacağını gözləməyib, onları uşaqda məhz məktəbəqədər dövrdən başlayaraq inkişaf etdirməyi məsləhət görürdü. O qeyd edirdi ki, uşaq ilk vaxtlarda ətrafdakı hadisələri müşahidə edərkən ancaq diqqət mərkəzində olan şeylər onun nəzərini özünə cəlb edir. Tərbiyəçinin vəzifəsi uşağın diqqətini nəzərə az çarpan, ilk nəzərdə görünməyən cəhətlərə cəlb etmək və uşağı əşyaya diqqətlə baxmağa sövq etməkdir. Bu uşağa əşya və ya hadisədəki yeni əlamət və keyfiyyətləri yavaş-yavaş artıq müstəqil surətdə axtarmağı öyrədər. Vodovozova belə hallarda hətta bu və ya digər əlamətləri uşağa göstərməyi, lakin uşağın özünün onları tapmasına yardım etmək məqsədilə uşağa istiqamət verməyi məsləhət görürdü. O göstərirdi ki, bu, uşaqda müşahidə zamanı fəallığın və müstəqilliyin artmasına yardım edər. Həmçinin ətraf mühitə gəzinti və tənəzzöh zamanı tərbiyəçi rastlaşdıqları hər bir şey haqqında uşaqlara məlumat verməli, əksinə onların içərisindən uşaqların anlaması, dərk etməsi mümkün olanları seçməlidir.

Vodovozova uşağın əqli inkişafının təlimlə əlaqədar bağlı olduğunu və çox düzgün uşaqların təlimlə məşğələlər vasitəsilə nail olmağın zəruriliyini söyləyirdi. Uşaqların əqli inkişafına gəldikdə biz qətiyyətlə deyə bilərik ki, uşaq məktəbə daxil olana qədər evdə onunla səmərəli hazırlıq işləri aparılmalıdır, çünki sonralar yalnız xüsusi istedadı olan uşaqlar əsaslı biliklərə yiyələnə bilərlər... Əgər evdə uşağı 5 dəqiqə müddətində belə, fasiləsiz olaraq düşünməyə, öz diqqətini cəmləşdirməyə öyrətməyiblərsə, qulaq asdığı fənlərə səthi də olsa maraq oyadılmayıbsa, o sinifdə bir saatlıq dərsi diqqətlə necə dinləyə bilər? Təlim prosesində tərbiyəçinin rəhbər roluna xüsusi fikir verən Vodovozova yazırdı: «Tərbiyəçinin iştirakı, onun uşağa məxsus xarakter xüsusiyyətləri saxlamaq və onlara lazımi təkan və istiqamət vermək bacarığı olmadıqda təəssüratın canlılığı, uşaq yaradıcılığı və digər qabiliyyətlər sönür və məhv olur». (2,123) Bununla yanaşı Vodovozova uşağın təlim-tərbiyəsi prosesində tərbiyəçiyə uşağa lüzumsuz yerə təsir etmək və onun işinə müdaxilə etmək kimi hallardan çəkinməyi məsləhlət görür. Uşaqlara ətraf mühit haqqında məlumat verilməsi və onların təsəvvürlərinin dəqiqləşdirilməi zamanı Vodovozova tərbiyəçinin sözünün, müsahibə, hekayə və nağılın böyük rola malik olmasını söyləyirdi. O, uşağın yaşı artdıqca tərbiyəçinin sözünə daha artıq yer vermək lazım olduğunu söyləməklə yanaşı qeyd edirdi ki, sözlər uşaqlara əşya və hadisələrin konkret təsəvvürlərini aydınlaşdırmalıdır.

Vodovozova xüsusi şəkildə qeyd edirdi ki, məktəbəqədər dövrdə uşaqlar nə ilə tanış olurlarsa, ətraf mühitdə nəyi müşahidə etməlidirlərsə, bütün bunlar uşaqları əqli cəhətdən inkişaf etdirməklə yanaşı onlara ləzzət, sevinc və şadlıq da gətirməlidir. Bunu qeyd etməklə Vodovozova məktəbəqədər dövrdə əqli tərbiyəyə əyləndirici xarakter vermək deyil, əksinə o, formal şəkildə aparılan təlimə zidd münasibət bəslədiyini göstərmək istəyirdi.

Uşaqlara ana dili təlimi zamanı Vodovozova həm gəzinti, həm tənəzzöh, həm oyunlar, həm də məşğələlərdən istifadə etməyi təklif edirdi. Bununla yanaşı o, bu məqsəd üçün bir sıra xüsusi məşğələlər ayırırdı: uşaqlarla söhbət, müsahibə, nəqletmə, kitabların oxunması, şerlərin əzbərlədilməsi. Böyük məktəbəqədər yaşlı uşaqların nəqlindən daha artıq ardıcıllıq, rabitəlilik, müstəqillik və öz fikrini aydın surətdə ifadə etməyi tələb edən Vodovozova bu yaşlı uşaqlarla gördükləri, eşitdikləri haqqında, şəkillər üzrə nəql etməyi, bədii əsərlərin məzmununu söyləməyi, təmsilləri əzbərləməyi mümkün hesab edirdi.

Uşaqlara oxunmaq üçün klassik ədəbiyyatdan nümunələr seçilməsi məsələsinə də Vodovozova tamamilə düzgün münasibət bəsləmişdir. O, əsərin bədii qiymətini azaltmamaq, onun əsas məzmununu, ideyasını təhrif etməmək, dəyişdirməmək şərtilə ondan hissələr, təsvirlər, hekayələr seçib uşağa oxumağı mümkün hesab edirdi. Vodovozova uşaqlara ana dili öyrətmək üçün təklif etdiyi xüsusi məşğələlərin aparılmasına dair bir sıra qiymətli praktik göstərişlər də vermişdir. Vodovozovanın təklif etdiyi məşğələlərin əksəriyyətinin sistemi, quruluşu bu gün də öz əhəmiyyətini itirməmişdir. Bu, xüsusilə xalq nağıllarından, oyunlardan, folklordan istifadə etmək, ətraf mühitlə tanışlıq və s. məsələlərə aiddir. Məsələn, Vodovozovanın müsahibələrin aparılmasına dair verdiyi aşağıdakı göstəriş bu gün də eyniu dərəcədə qiymətlidir: müsahibə konkret material üzərində qurulmalıdır, müşahidəni, gəzintini müşayiət etməlidir, quru və formal deyil, canlı və maraqlı keçməlidir. Lakin özü bəzən öz göstərişlərinə əməl edə bilməmişdir. O, uşaqlara oxumaq, nəql etmək, onlara müsahibə aparmaq üçün valideynlərə və tərbiyəçilərə tövsiyə edilən ədəbiyyat siyahısı verir. Lakin bu ədəbiyyat üzrə məşğələlərin praktik şəkildə necə təşkil olunduğu lazımi qaydada izah edə bilmir. Belə ki, onun xalq nağıllarının oxunması və nəql edilməsinə dair verdiyi nümunələr izahlı qiraət dərslərini xatırladır.

Əvvəlki qeydlərdən göründüyü kimi Y.N.Vodovozova K.D.Uşinskinin ana dili təlimi haqqınakı görüşlərini, nöqteyi-nəzərini əsas tutaraq onları məktəbəqədər yaşlı dövrünə uyğun şəkildə işləmiş və məktəbəqədər dövrdə ana dili təlimi metodikasının bəsit konturunu yaratmışdır. Məktəbəqədər yaşlı uşaqlara ana dili təlimi məsələsi sonrakı inkişafını məktəbəqədər tərbiyə sahəsində çalışan görkəmli pedaqoqlardan Y.İ.Tixeyevanın əsərlərində tapmışdır.

«Xarici dillərin öyrənilməsinə heç bir vaxt erkən və heç bir vəchlə uşağın mənəvi təbiətində ana dilinin dərin kök saldığı aşkar olmadan qabaq başlamamalıdır. Bu münasibətlə ümumi bir vaxt qoymaq olmaz. Bəzi uşaqlarla xarici dili 7 və ya 8 yaşlarında (heç bir vaxt bundan qabaq olmaz) o biriləri ilə 10-12 yaşlarında başlamaq olar... Xarici dillərin ikisini bir vaxtda deyil, birini o birinin dalınca öyrənmək lazımdır».(5,123)

Yelizaveta İvanovna Tixeyeva (1867-1943) da Y.N.Vodovozova kimi K.D.Uşinskinin uşağın inkişafında ana dilinin əhəmiyyətinə dair göürşlərinin qızğın tərəfdarı və davamçısı olmuşdur. O, Uşinski tərəfindən irəli sürülmüş prinsiplər əsasında ana dili təlimi metodikasını qurmuşdur. Bu metodikanı Tixeyeva ilk dəfə 1913 və 1923-cü illərdə nəşr etdirdiyi «Ana dili və onun inkişaf yolları» kitabında şərh etmişdir. Bu kitabda ana dilinin məktəb yaşlı uşaqlara necə təlim edilməsinin yolları göstərilmişdirsə də, məktəbəqədər dövrdə də toxunulmuşdur. Sonralar Tixeyeva həmin prinsiplər əsasında uşaq bağçasında ana dili təlimi metodikasını işləmiş və 1937-ci ildə bu gün belə öz əhəmiyyətini itirməyən «Məktəbəqədər yaşlı uşağın nitq inkişafı» adlı əsərini çap etdirmişdir. Bu əsər 1948-ci ildə yenidən nəşr olunmuşdur. Bu əsərdən sonra Tixeyeva körpəlik dövründə nitq inkişafına dair məqalələr də yazmışdır. Tixeyeva körpəlik və məktəbəqədər yaş dövrlərində nitq inkişafına dair olan əsərləri 1967-ci ildə, onun anadan olmasının 100 illiyi münasibətilə, «Uşaqların nitq inkişafı» adı altında bir daha çapdan çıxmışdır.

Tixeyeva o dövrdə psixologiya aləmində geniş yayılmış bir fikrin, uşaq nitqinin cəmiyyətə zidd olması fikrinin əleyhinə olmuşdur. O göstərir ki, uşaq nitqi ictimai inkişaf qanunları ilə şərtləşdirilmiş, sosioloji bir haldır. Uşaq nitqinin fərdi inkişafını nəzərdən keçirərək, o, bu inkişafın ardıcıllığını da göstərir: əvvəlcə qığıldama, pəltəkləmə, sonra dilə praktik surətdə yiyələnmə (bu məktəbəqədər yaş dövrüdür), daha sonra isə dilin əsaslı surətdə öyrənilməsi dövrüdür ki, bu da məktəb həyatını əhatə edir. Məktəbəqədər yaşlı uşaqların nitq xüsusiyyətlərini çox gözəl bilən Tixeyeva «Uşaq dilinin müəyyən dövrdə əhəmiyyətli olduğunu qeyd etməklə yanaşı onu qoruyub saxlamağın tərəfdarları ilə razılaşmış. Bu dövrün keçici olduğunu və təlimin təsiri ilə bu dövrə məxsus nitq xüsusiyyətlərinin tədricən yox olacağını, dəyişəcəyini» qeyd edir. (5,12)

Tixeyeva göstərir ki, uşağın nitqi uşağın inkişafını aydınlaşdırmaqla bərabər onun bu inkişafına xidmət edir. Uşağın nitqinin vəziyyətinə əsasən onun əqli inkişafı haqqında təsəvvür əldə etmək olar. Tixeyeva uşağın nitqinin inkişafını onun əqli inkişafı ilə sıx əlaqədə görür və belə bir fikrə tərəfdar olur ki, uşağın nitqinin inkişafı üçün təsəvvürün aydınlığı zəruri şərtlərdən biridir. Təsəvvür aydınlığı isə, onun fikrincə, uşağın ətraf mühitlə sıx əlaqəsi nəticəsində yarana bilər.

Ümumiyyətlə, uşağın ümuni inkişafında, eləcə də nitqinin inkişafında ətraf mühitin böyük əhəmiyyətindən danışan Tixeyeva yazır: «Uşağın nitqinin inkişafında onu əhatə edən mühitin əhəmiyyəti böyükdür. Tərbiyənin elə bir cəhəti yoxdur ki, şərait ona təsir etməsin» (5,67). Bu vəziyyət dilin inkişafına da aiddir. «Əgər siz uşağın nitqinin inkişaf etməsinə çalışırsınızsa, onda uşağı əşyalarla əhatə edin, onları oyun və əmək zamanı öyrənin və müşahidənin nəticəsini sözlə ifadə edin. Quru divarlar arasında uşaq danışmağı öyrənməz».(5,68) Uşağın nitqinin inkişafında ətraf mühitin əhəmiyyətindən danışan Tixeyeva göstərir ki, uşağın nitqinin inkişafında ailənin, həm tərbiyəçinin nitqinin, həm də uşaqlarla ünsiyyətin əhəmiyyəti böyükdür. Uşaq cəmiyyəti nitqin inkişafı üçün praktik məktəbdir. Odur ki, uşaqların daha çox ünsiyyətdə olması vacibdir. Ona görə də Tixeyeva təklif edir ki, oyun və gəzinti zamanı böyük uşaqlarla kiçiklər tez-tez görüşdürülsün. Bu halda kiçiklər böyüklərin düzgün nitqini tez-tez eşidib təqlid edəcəklər. Tixeyeva bu birləşməyə, eyni zamanda, çox ustalıqla yanaşmağı tələb edirdi. Çünki bu birləşmə zamanı yarana bilən səs-küy uşağın nitqini inkişaf etdirmək üçün çox pis şəraitdir. Tixeyeva öz əsərlərində əyanilik prinsipinidə işləmişdir. Bunu biz onun «Məktəbəqədər yaşlı uşağın nitq inkişafı» əsərinin «Tənəzzöh», «Şəkil», «Didaktik oyun və məşğələlər» bölmələrində aydın görürük.

Y.İ.Tixeyevanın «Məktəbəqədər yaşlı uşağın nitq inkişafı» adlı əsərində «Canlı söz» bəhsi xüsusi bir yer tutur. Tixeyeva buraya o məşğələləri daxil etmişdir ki, orada birinci yerdə əşyalar, şəkillər deyil, məhz canlı söz durur. Bu bəhsdə uşaqlarla söhbəti, müsahibəni necə aparmaq, uşaqların nağılına necə rəhbərlik etmək barədə qısa metodik göstərişlər verilir. O, məşğələ zamanım tərbiyəçinin roluna və nitqinə xüsusi yer verməklə yanaşı onlara məsləhət görür ki, müsahibə, nəqletmə, şəkil üzrə iş zamanı söhbətə, müsahibəyə, nağıla, şəklə olan maraqlarını söndürməmək üçün uşağın nitqindəki qüsurların yalnız bir hissəsini, yəni ən kobudunu düzəltmək lazımdır.Tixeyeva metodikasında verilmiş "nəqletmə nitqi inkişaf etdirmək vasitəsidir" məsələsi daha qiymətlidir. Uşaqların nitqinin inkişafında nəqletməyə xüsusi yer ayıran Tixeyeva uşaq nağıllarının dörd növdə aparılmasını məsləhət görür:Uşaqların şəxsi təcrübəsinə əsaslanan hadisələr haqqında nəqletmə, Bədii əsərin nəqli, Plan əsasında nəqletmə,Verilmiş sərlövhə əsasında uşaqların nağıl düzəltməsi. Bu nağıl növlərini göstərməklə yanaşı Y.İ.Tixeyeva bu növlərin hər biri haqqında konkret surətdə danışmış, onların məzmununu, onlara rəhbərlik yollarını müəyyənləşdirməyə çalışmışdır. Uşağa xarici dil öyrətmək məsələsində də Tixeyeva Uşinskinin və Vodovozovanın fikirlərinə tərəfdar çıxaraq demişdir ki, uşağa praktik surətdə yalnız bir dili öyrətdikdən sonra ikinci dili öyrətmək olar.

Yuxarıda qeyd olunanlardan göründüyü kimi adları çəkilən və məktəbəqədər yaşlı uşaqların nitq inkişafı təliminin əsasını qoyan görkəmli rus pedaqoqları məktəbəqədər dövrdə ana dilinin əhəmiyyəti və onun təliminin yolları haqqında xeyli dəyərli, indi belə öz əhəmiyyətini itirməmiş fikirlər söyləmişlər.

## Ədəbiyyat

1. Uşinski. K.D. Seçilmiş pedaqoji əsərləri. Bakı: Azərnəşr, 1953.
2. Водовозова Е.Н. Умственное и нравственное воспитание детей от первого проявления сознания до школьного возраста. М.Академия, 2012, 256с.
4. Стародубова Н.А. Теория и методика развития речи дошкольников Учебное пособие для студ. учреждений высш. образования. – 6-е изд., перераб. и доп. – М.: Академия, 2013. – 256 с.
5. Тихеева, Е. И. Развитие речи детей – Москва: Издательство Юрайт, 2019. 161 с.

**Rəyçi: f.e.n. M.Tağıyeva**

Göndərilib: 30.07.2020 Qəbul edilib: 31.07.2020